# KÜRD DÎPLOMAT

KÜRD xalqı mübariz və qəhrəman xalqdır
H.Əliyev

№ 40 (331) 1-6 Dekabr, Çileya pêş, sal, 2015

Ji meha şûbatê sala 2003-a tê weşandin

Həftəlik İctimai-siyasi qəzet

Rojnama heftename civakî û sîyasî

Qiyməti: Hêjaye: 40 qəpik



Səh. 2

İlham Əliyevin və Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenkonun nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olub


Səh. 9

Naveroka gotara Serok Barzanî ya li rêwresma salvegera koça dawî ya Xanima Danielle Mitterrand


Səh. 4

## Tahir Süleyman haqqında yazılanlara cavab verdi


Səh. 7

Daşkəsən rayonu bu gün ən sürətli quruculuq dövrünü yaşayır


Səh. 13

Selahattin Demirtaş: Tahir'i öldüren devlet değil, devletsizliktir


Səh. 9

Mesrûr Barzanî û Obeyidî civiyan


Səh. 15

В Курдистане стартует кампания по искоренению насилия в отношении женщин

## Rusya'dan Türkiye'ye: Vize geri döndü, görüşme yok
Səh. 13

## Türkiyə-Rusiya qarşıdurmasının hansı riskləri var?
Səh. 8

## Erdogan û Pûtîn Çi ji Kurdan Dixwazin?
Səh. 10

Laçın Rayonu İcra Hakimiyyəti başçısının növbəti görüşü-səyyar qəbulu Bakı şəhərinin Xətai rayonunda keçirilmişdir
Səh. 7

## Глава курдского спецназа прокомментировал текущую ситуацию на фронтах
Səh. 14

## Qasîdê aştiyê Elçî hat oxirkirin: Hevalno min serê xwe netewand
Səh. 10


Səh. 12

## ULU ÖNDƏR


Səh. 8

Türkiyədə tanınmış kürd vəkilin qətli etirazlarla qarşılanıb


Səh. 6

## Kürdüstan muxtariyyətində Azərbaycan söhbəti...

# İlham Əliyevin və Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenkonun nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olub

Təkbətək görüş başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenkonun nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olub. Dövlət başçıları görüşdə çıxış ediblər.

Prezident Aleksandr LUKAŞENKO dedi:

**-Hörmətli İlham Heydər oğlu.**

**Əziz dostlar.**

Sizi Belarus torpağında ürəkdən salamlayıram. Budəfəki səfər Belarus ilə Azərbaycan arasında yaxın, dost münasibətlərin fəal inkişaf etməsinin təsdiqidir. Biz bu münasibətləri həqiqətən yüksək qiymətləndiririk. Zənnimcə, dünya iqtisadiyyatında böhran hallarını nəzərə alaraq bu gün biz əsas diqqəti qarşılıqlı faydalı əməkdaşlığın yeni ideyaları və istiqamətləri üzərində cəmləşdirməliyik. Biz bu barədə İlham Heydər oğlu ilə çoxdan danışırdıq. İndiki çətin şəraitdə bizim dövlətlərimiz, xoşbəxtlikdən, qarşılıqlı əmtəə dövriyyəsinin ciddi azalmasına yol verməyiblər. Bununla belə, zaman bizdən qarşılıqlı iqtisadi fəaliyyəti, o cümlədən üçüncü ölkələrin bazarlarında fəaliyyəti genişləndirmək üçün çevik və səmərəli qərarlar qəbul etməyimizi tələb edir. Fəxrlə qeyd etmək istəyirəm ki, Gəncə avtomobil zavodunda MTZ Belarus traktorlarının, Minskdəki MSKT avtozavodunun texnikasının istehsalı üzrə müştərək layihə yüksək nəticələr verir. 2007-ci ildən bəri bu zavodun istehsal sahələrində 6 min “Belarus” traktoru, 3 minə yaxın avtomobil və qoşqu istehsal edilib. Başqa sahələrdə də ikitərəfli qarşılıqlı fəaliyyəti genişləndirmək üçün imkanlar az deyil. Məsələn, nəqliyyat əlaqələrini təkmilləşdirmək üçün biz kiçik və orta həcmli ucuz, lakin etibarlı avtobuslar, İsveçrə ilə birgə istehsal edilən dəmir yolu sərnişin qatarları, şəhərdaxili daşımalar üçün ekoloji təmiz qaz-generator mühərrikləri ilə işləyən rahat avtobuslar təklif edə bilərik. Onların yığılmasını Sizin ölkənizdə təşkil etmək olar. Güman edirəm ki, Azərbaycanın nəqliyyat infrastrukturunun daha da təkmilləşdirilməsində bizim iştirakımız faydalı olacaq. Məsələn, Bakının mərkəzi ilə onun şəhərətrafı zonası arasında sürətli relsli nəqliyyatın hərəkətinin təşkil edilməsi, o cümlədən Heydər Əliyev Beynəlxalq Aeroportu ilə şəhər arasında əlaqənin daha rahat şəraitinin təmin olunması üçün avadanlıq satışı xəttinin layihələşdirilməsində biz iştirak edə bilərik. Həmçinin tütün və siqaretin qarşılıqlı satışının inkişafı sahəsində sanballı imkanlar var və bu cür münasibətlər uzunmüddətli əsasda yaradılmalıdır. Azərbaycanın işgüzar dairələrinin iştirakı ilə neft kimyası, energetika, kənd təsərrüfatı sahələrində kooperasiya imkanlarını da nəzərdən keçirmək istərdik. Müasir dünyada informasiya texnologiyaları, informasiyanın qorunması sahələri xüsusilə aktualdır. Bu sahələrdə müştərək layihələr axtarışı üzərində işi davam etdirmək lazımdır. Ümidvaram ki, bugünkü görüş bizim əməkdaşlığın inkişaf etdirilməsi prosesinə əlavə təkan verəcək, onu konkret məzmunla zənginləşdirəcək.



Hörmətli İlham Heydər oğlu, bir daha vurğulamaq istəyirəm ki, Azərbaycan Belarusun etibarlı dostu və tərəfdaşı olub, indi də belədir. Biz dostluğumuzu yüksək qiymətləndiririk. Əgər bu, Sizin xeyrinizə olarsa, biz Avrasiya İqtisadi İttifaqında Sizin maraqlarınızın təmin olunmasına eyni dərəcədə səmimi və açıq kömək etməyə hazırıq. Hörmətli İlham Heydər oğlu, Sizə təşəkkür edirəm ki, bu çətin vaxtda sözünüzə əməl etdiniz, bizim ölkəyə gəldiniz. Gördüyünüz kimi, danışmalı məsələlər var. Buna görə də Sizi Belarus torpağında bir daha salamlayıram.

**Prezident İlham ƏLİYEV dedi:**

-Çox sağ olun, hörmətli Aleksandr Qriqoryeviç. Mən ilk növbədə Sizə qonaqpərvərliyinizə, məni Belarusa yenidən rəsmi səfərə dəvət etdiyinizə görə təşəkkür etmək istərdim. Sizin ölkənizdə olmağa həmişə şadam, burada özümü evimdəki kimi hiss edirəm.

Sizin qeyd etdiyiniz kimi, son illərdə ölkələrimiz arasında çox etimadlı münasibətlər səviyyəsi yaranıb, bu münasibətlər çox uğurla inkişaf edir. Bu gün biz Sizinlə nə işlər görüldüyünü və nə etməyi planlaşdırdığımızı müzakirə etdik. Lakin hər şeydən əvvəl, Sizi prezident seçkilərində inamlı qələbəniz münasibəti ilə ürəkdən təbrik etmək istərdim. Belarus xalqı Sizə bir daha yüksək etimad göstərdi və seçkilərin nəticələri, əslində Sizin ölkə rəhbəri vəzifəsində fəaliyyətinizin nəticəsidir. Düşünürəm ki, bu gün mənim nümayəndə heyətimin üzvləri də Belarusun nə dərəcədə uğurla, dinamik, səmərəli inkişaf etməsini bir daha öz gözləri ilə gördülər. Minsk çox yaraşıqlı – qəşəng, rahat, təmiz şəhərə çevrilib. Əminəm ki, burada yaşamaq, işləmək xoşdur, buraya gəlmək xoşdur.

Ölkələrimiz arasında münasibətlər həqiqətən ən yüksək səviyyədədir. Siz tamamilə haqlısınız, biz buna nail olmaq üçün uzun yol keçmişik. Lakin 10 ildən bir qədər çox əvvəl başlanmış bu cür fəal əməkdaşlıq illərində, mənim fikrimcə, bir-birimizi müxtəlif vəziyyətlərdə artıq yetərincə sınamışıq. Münasibətlərimizin möhkəmliyini, etibarlılığını sınamışıq və heç vaxt bir-birimizi naümid qoymamışıq. Buna görə, biz bu gün bir-birimizə inanırıq və sənədlərin altındakı imzalarımız kimi, sözlərimiz də böyük sanbala malikdir. Bu gün gələcək əməkdaşlıq istiqamətlərini müəyyən edən sənədlər də imzalanacaq. Lakin əsas odur ki, biz bir sıra məsələlər barəsində razılığa gəlmişik. Biz sevinirik ki, Belarus uğurla inkişaf edir. Sizin qeyd etdiyiniz kimi, indi çətin zamandır. İqtisadi böhrana siyasi böhran, bir sıra ölkələrdə isə hərbi-siyasi böhran da əlavə olunur. Biz qarşıdurma dövründə yaşayırıq. Təbii ki, bu vəziyyət beynəlxalq məsələlərin həllinə yeni yanaşmalar tələb edir. Bax, bu cür şəraitdə Belarusda mövcud olan ictimai-siyasi sabitlik uğurun əsas göstəricisidir, habelə bu uğurun davam edəcəyinin rəhnidir. Biz, Sizin dostlarınız kimi, buna çox şadıq. Belarus bizim üçün dost, qardaş dövlətdir. Əminəm ki, bu səfərdən sonra münasibətlərimiz daha sürətlə inkişaf edəcək. Görüşdə elm, yüksək texnologiyalar, maşınqayırma sənayesi, beynəlxalq təşkilatlarda və digər sahələrdə qarşılıqlı əməkdaşlıq məsələləri müzakirə olundu.

# İlham Əliyev Türkiyənin xarici işlər nazirinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib

Prezident İlham Əliyev Türkiyə Respublikasının xarici işlər naziri Mövlud Çavuşoğlunun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

**Prezident İlham ƏLİYEV dedi:**



-Xarici işlər naziri vəzifəsinə təyin olunmağınız münasibətilə sizi təbrik edirəm, fəaliyyətinizdə uğurlar arzulayıram. Çox şadam ki, siz ilk səfəri Azərbaycana edirsiniz. Bu ənənə artıq neçə ildir ki, yaşayır. Həm dövlət, hökumət başçıları, həm nazirlər seçkilərdən sonra ilk səfəri qardaş ölkəyə edirlər. Fürsətdən istifadə edərək, Sizi bu yaxınlarda Antalyada uğurla keçirilmiş G20 Zirvə görüşü münasibətilə təbrik etmək istəyirəm. Bu, Türkiyənin çox böyük uğurudur. Türkiyə bir daha nümayiş etdirdi ki, böyük dövlətdir, böyük gücə malik olan bir dövlətdir. Şadam ki, qardaş ölkə Azərbaycanı bu toplantıya dəvət etdi. Bu, bir daha Türkiyə-Azərbaycan əlaqələrinin nə qədər yüksək səviyyədə olduğunu nümayiş etdirir və həm bizim xalqlara, həm dünyaya göstərir ki, Türkiyə və Azərbaycan dünya miqyasında bir-birinə ən yaxın olan ölkələrdir.

Dövlətimizin başçısı bildirdi ki, G20-nin Antalyada keçirilən Zirvə toplantısı bir çox məsələlərdə Türkiyənin mövqeyinin mühüm rola malik olduğunu göstərdi. Azərbaycan-Türkiyə əlaqələrinin ən yüksək səviyyədə olduğunu vurğulayan Prezident İlham Əliyev ölkələrimizin bütün istiqamətlərdə uğurla əməkdaşlıq etdiyini bildirdi.

**Xarici işlər naziri Mövlud ÇAVUŞOĞLU dedi:**

-Cənab Prezidentim, çox təşəkkür edirəm. Əvvəla, bizi qəbul etdiyinizə görə Sizə minnətdarlığımı bildirmək istəyirəm.

Xarici işlər naziri olaraq vəzifəyə təyin edildikdən sonra ilk səfərimi qardaş Azərbaycana etməkdən, ənənələrimizi davam etdirməkdən böyük qürur duyduğumu vurğulamaq istəyirəm.

Sizi də 1 noyabr parlament seçkiləri münasibətilə təbrik etmək istəyirəm. Eyni gündə həm Türkiyədə, həm də qardaş Azərbaycanda seçkilər keçirildi. Çox uğurlu seçki keçirdiniz. Beynəlxalq təşkilatların hesabatlarına da baxdım. Dünən Avropa Şurasının təsdiq hesabatlarına da baxdım. Bu münasibətlə Sizi təbrik edirik. Mövlud Çavuşoğlu Azərbaycanın G20-nin Antalyada keçirilən Zirvə toplantısında iştirakına görə Prezident İlham Əliyevə minnətdarlığını bildirdi. Prezident İlham Əliyevin G20-nin Zirvə toplantısında iştirakından qürur hissi keçirdiyini deyən Türkiyə Respublikasının xarici işlər naziri Mövlud Çavuşoğlu dövlətimizin başçısının bu cür mötəbər tədbirdə beynəlxalq məsələlərlə bağlı söylədiyi dəyərli fikirləri yüksək qiymətləndirdi. O qeyd etdi ki, Azərbaycan belə bir toplantıda iştirak etməklə Türkiyənin mövqeyini daha da gücləndirdi. Mövlud Çavuşoğlu Türkiyə-Azərbaycan əlaqələrinin bütün sahələrdə gələcəkdə daha da inkişaf etdiriləcəyinə, iki qardaş ölkənin prezidentlərinin liderliyi ilə bu əlaqələrin bundan sonra da yüksək səviyyəyə qaldırılacağına əminliyini ifadə etdi.

Söhbət zamanı dövlətimizin başçısı Türkiyə ilə Rusiya arasında münasibətlərdə yaranmış gərginliyə toxunaraq qeyd etdi ki, Azərbaycan hər iki ölkə ilə tarixən sıx əlaqələrə malikdir və bu gərginlikdən təəssüf və narahatlıq hissi keçirir. Prezident İlham Əliyev bildirdi ki, Azərbaycan tərəfi Türkiyə-Rusiya münasibətlərindəki gərginliyin azaldılması və aradan qaldırılması istiqamətində səylərini göstərməyə hazırdır.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı məsələlər müzakirə olundu, Azərbaycan ilə Türkiyənin həyata keçirdikləri TANAP, TAP, Bakı-Tbilisi-Qars və digər layihələrin icrası ilə bağlı fikir mübadiləsi aparıldı. ***president.az***

# DİA.az saytının rəhbərliyi və Cümşüd Nuriyev kimi araqarışdıran, məni separatizmdə günahlandıraraq Vətənimiz Azərbaycanda milli münaqişə yaratmaq istəyən ünsürlərə cavab olaraq gördüyüm işlər haqqında oxucuları məlumatlandırıram..!



Görəsən, DİA.az kimi sayt rəhbərləri və Cümşüd Nuriyev kimi “ziyalı”lar, mənim kimi fəal insanlara nə üçün ikrah hissi ilə yanaşırlar. Getdiyim hər bir xarici ölkələrdə Azərbaycanımızın başına gətirilən faciələrdən, “İyirmi yanvar”, “Xocalı soyqırımı”ndan, Qərbi Azərbaycandan, Zəngəzur, Dərələyəzdən, Qarabağdan danışıram, mətbuat konfransları keçirir, xalqımızın dərd-sərini dünya mətbuat nümayəndələrinə çatdırmaqla yanaşı, ölkə rəhbərliyimizin sayəsində Respublikamızın regionda inkişaf etmiş ölkələr sırasında olduğundan sönbət açır və şərhlər verirəm.

Öz hesabıma qardaş Türkiyə respublikasına gedirəmsə və Türkiyənin Başnaziri Rəcəb Təyyib Ərdoğanın təşəbbüsü ilə keçirilən ``Demokratiya, qardaşlıq, barış, dostluq” tarixi görüşünə qatılıramsa, Kürdüstan Bölgəsinin Prezidenti Məsud Barzani ilə, Türkiyənin Başnaziri Рəcəb Təyib Ərdoğan ilə görüşə bilirəmsə və Kürdüstan Bölgəsinin Prezidentini ölkəmizə dəvət edə bilirəmsə, qırxdan artıq partiya və təşkilatlarda ölkəmiz haqqında məlumat verə bilirəmsə, bu təqdirəlayiq görülməlidir, təşəkkür edilməlidir və başqalarına örnək olmalıdır.

DİA.az kimi sayt rəhbərləri və Cümşüd Nuriyev, Biləcəridən o tərəfə getmək lazımdır, dünya ictimaiyyəti arasına çıxmaq lazımdır, nə vaxta qədər qınınızda qalacaqsınız?

**DİA.az kimi sayt rəhbərləri və Cənab Cümşüd Nuriyev, məni separatizmdə günahlandırmayın, siz heç narahat olmayın, ölkəmizin hüquq-mühafizə orqanları çox ayıq-sayıq çalışırlar və göydə dəstə ilə uçan quşların hansının gözü çaş, hansının gözü katarakt, hansının gözü kor olmasından xəbərdardırlar. Və sizin, mənim nə işlə məşğul olduğumuzu yaxşı bilirlər.**

Növbəti səhifələrdə gördüyüm işlər haqqında az da olsa, oxucuları və sizi məlumatlandırıram.

***DİA.az kimi sayt rəhbərləri və Cümşüd Nuriyev, 20 ilə yaxındır ki, ermənilərin Bağdad şəhərində səfirliyi, Ərbil şəhərində isə konsulluğu fəaliyyət göstərir. Baxmayaraq orada cəmi 3 min erməni yaşayır. Lakin İraqda 3 milyondan artıq türkman qardaşlarımızın yaşayamasına baxmayaraq, 2010-cu ilin noyabrın 12-də ölkə prezidentinin Bağdadda Azərbaycan səfirliyinin açılması üçün verdiyi sərəncam hələ də yerinə yetirilməyib. Bu durum siz politoloqları heç narahat etmirmi?***

## Azərbaycan Respublikası Prezidenti, zati-aliləri İlham Əliyev cənablarına
## “Diplomat” qəzetinin idarə heyəti adından
## M Ü R A C İ Ə T

**Çox hörmətli cənab Prezident!**

Artıq bütün dünya ölkələrinə məlumdur ki, Azərbaycan Sizin rəhbərliyiniz altında hər birimizin qürur duyduğu iqtisadi-siyasi uğurlara imza atmaqdadır. Azərbaycanın Böyük oğlu, xalqımızın xilaskarı, Ulu Öndər Heydər Əliyevin zərgər dəqiqliyi ilə qurduğu dövlətçilik prinsipləri, Sizin uzaqgörən siyasətinizdən güc alaraq daha da möhkəmlənməkdədir. Artıq son illər Sizin rəhbərliyiniz altında aparılan uğurlu siyasət nəticəsində, dünyanı erməni yalanlarından xəbərdar etməkdə, onilliklər boyu bizi məngənədə saxlayan informasiya blokadasını yarmaqdayıq. Bilirik ki, hələ qarşıda görüləsi xeyli önəmli işlər var və nəzərə almalıyıq ki, mövcud dünya hələ də ikili standartlardan əziyyət çəkir, bu azmış kimi xristian təəssübkeşliyi müsəlman dünyasına qarşı ədalətsizlik dalğasını daha da gücləndirməkdədir. Ancaq həqiqətin üzə çıxması uğrundakı mübarizə yolu nə qədər çətin olsa da, bir o qədər məsuliyyətli və şərəfli olduğundan hər birimiz bir informasiya təbliğatçısı funksiyasını daşıyaraq dünyanı fitnəkar erməni yalanlarına uymamağa, bəşəriyyətin tərəqqipərvər kəsimini qəflət yuxusundan ayıltmağa tələsməliyik. Sevindirici haldır ki, artıq Sizin uzaq görən siyasətiniz sayəsində sərhədlərimizin o tayında, xüsusilə də Avropa və Amerikada güclü diaspor təşkilatlarımız, lobbiçilik strukturlarımız formalaşmaqdadır və bu institutlar Azərbaycan həqiqətlərini dünya miqyasına çıxarmaqda, mədəniyyətimizi, adət-ənənəmizi, milli özünəməxsusluğumuzu tanıtmaqda xeyli önəmli işlər görməyə müvəffəq olublar.

**Cənab Prezident!**

Apardığınız dünyəvi siyasət nəticəsində nə qədər dost qazanmış olsaq da, düşmənlərimiz, rəqiblərimiz, bir sözlə, dövlətimizin güclənməsini istəməyən bədnam qüvvələr də yox deyil. Məhz buna görə də xalqımızın, dövlətimizin siyasətinin təbliği üçün hər bir fürsətdən yararlanmalıyıq. Məxsusi olaraq müsəlman dünyasıyla geniş iş aparılmalı, din qardaşlarımızın köməyindən bəhrələnməliyik. Hesab edirik ki, İraq Federativ Respublikası və Kürdüstan bölgəsi də bu işdə bizə umduğumuz köməyi edə bilər. Çünki İraq Federativ Respublikasında iki milyon yarım, Kürdüstan bölgəsində yüz iyirmi min türkman soydaşımız, altı milyona qədər kürd qardaşımız, on milyonlarla ərəb dindaşlarımız yaşayır. Biz əsrlər boyu qəhrəman kürd xalqı ilə Kərkükdə, Ərbildə, Süleymaniyədə, Altun körpüdə, Zəngəzurda, Dərələyəzdə, Qərbi Azərbaycanda, Qarabağda, Gəncədə, Bakıda birgə yaşamışıq, işğalçılara qarşı səngərlərdə çiyin-çiyinə vuruşmuşuq, xeyrimiz də bir olub, şərimiz də. Biz bu iki qardaş xalqların birlikdə gələcəkdə də bütün çətinlikləri dəf etmək gücündə olduğu qənaətindəyik. Ümid edirik ki, tezliklə əlaqələrimizin genişlənməsi, informasiya mübadilələrimizin intensivləşməsi, ortaq dəyərlərimizin paylaşması istiqamətində zəruri addımların atılmasına göstəriş verəcəksiniz. Biz tam əminik ki, hər üç qardaş xalqlar arasında siyasi-iqtisadi, mədəni əlaqələrin qurulması ölkəmizin ərazi bütövlüyünə edilən təcavüzün gerçək mahiyyətinin dünya miqyasına daha bir cəbhə vasitəsiylə çıxarılmasını təmin edə bilər. Kürdüstan bölgəsinin yetkililəri Azərbaycan tərəfinin rəsmi qərarını səbrsizliklə gözləyir və onlar istər Ərbildə, istərsə də Bakıda, qarşılıqlı olaraq rəsmi nümayəndəliklərin açılacağı günün çox da uzaqda olmadığına inanırlar. Artıq qardaş Türkiyə bu əlaqələrin qurulmasına başlayıb və Bağdadda Səlahiyyətli Səfirliyini və Kürdüstan bölgəsinin Ərbil şəhərində özünün Səlahiyyətli Konsulluğunu açıb.

-Diqqətinizə çatdırmaq istəyirik ki, internetdən aldığımız məlumata əsasən, iki ildən artıqdır işğalçı Ermənistan Respublikası Bağdadda özlərinin Səlahiyyətli Səfirliyini açıb və Kürdüstan bölgəsində də Konsulluğunun açılmasını planlaşdırırlar. Güman edirik ki, Azərbaycan Respublikası da belə bir addım atacaq, qardaş Türkiyə və İraq-Kürdüstan bölgəsi ilə birlikdə ölkəmizin siyasi maraqlarını Yaxın Şərq ölkələrində təşviq və təbliğ edəcəklər və jurnalistlərimiz, siyasi xadimlərimiz Bağdada, Kürdüstan bölgəsinə gedərək, Azərbaycan həqiqətlərini yeni bir cəbhədən dünya ictimaiyyətinə çatdıracaqlar.

**Əvvəlcədən Sizə minnətdarlığımızı bildiririk!**

***Hörmətlə: “Diplomat” qəzetinin idarə heyəti adından, qəzetin təsisçi və baş redaktoru Tahir Süleyman oğlu Əliyev.***



AZƏRBAYCAN RESPUBLİKASI
XARİCİ İŞLƏR NAZİRLİYİ

№ 4/21-170/21/11
“07” 03 2011

“Diplomat” qəzetinin təsisçisi
və baş redaktoru
cənab Tahir Süleyman oğlu
Əliyevə

Hörmətli Tahir müəllim,

Sizin İraq Respublikasının Ərbil bölgəsində Azərbaycanın konsulluğunun açılması məsələsi ilə bağlı Azərbaycan Respublikasının Prezidenti Administrasiyasına ünvanladığınız müraciətə Xarici İşlər nazirliyində baxılmışdır.

Diqqətinizə çatdırırıq ki, Azərbaycan Respublikasının Prezidenti tərəfindən 12 noyabr 2010-cu il tarixində Azərbaycan Respublikasının İraq Respublikasında (Bağdad şəhərində) səfirliyinin fəaliyyətinin təmin edilməsi haqqında sərəncam imzalanmışdır.

İraqın Ərbil şəhərində Azərbaycanın konsulluğunun açılması ilə bağlı müraciətinizə cavab olaraq bildirmək istəyirik ki, İraqda daxili, hərbi-siyasi vəziyyətin gərgin və mürəkkəb olduğunu nəzərə alaraq, İraqda vəziyyətin nisbətən sabitləşməsi və orada Azərbaycan Respublikasının səfirliyinin fəaliyyətə başlamasından sonra digər regionlarda konsulluğun açılması məsələsinə münasibətlərin və maraqlarımızın həcminə uyğun olaraq baxıla bilər.

Hörmətlə,

İkinci (Şərq) Ərazi
İdarəsinin rəisi N. Hüseynov

## Xarici İşlər Nazirliyinin İkinci (Şərq) Ərazi İdarəsinin rəisi hörmətli N. Hüseynov cənablarına

Cənab Hüseynov, Hörmətli ölkə Prezidenti İlham Əliyev cənablarına ünvanladığımız müraciətin cavabını aldıq. Qeyd etdiyimiz kimi, on illərdir qardaş Türkiyənin, ABŞ-ın, Avropa dövlətlərinin, sonda da mənfur qonşularımız, ermənilərin Bağdatda səfirliklərinin fəaliyyəti haqqında müraciətdə məlumat vermişdik. Çox təəssüflər olsun ki, 50-dən artıq ölkənin səfirliklərinin fəaliyyət göstərdiyi bir ölkədə Azərbaycanin səfirliyi yoxdur.

Hansı ki, dediyiniz kimi, Cənab Prezident 12 noyabr 2010-cu ildə bu haqqda Sərəncam imzalamışdır. Görəsən, 12 noyabr 2010-cu ildə verilən Sərəncam nə üçün indiyə qədər yerinə yetirilməyib.

Bəlkə, Bağdada getmək üçün qorxmaz səfirlərin tenderini elan edəsiniz? Görünür, ya bizim qanımız Bağdadda çalışan ermənilərin qanından qırmızıdır, ya da, orada çalışanların qanı bizim qanımızdan...

**Mən Tahir Süleyman, bir neçə dəfə Ulu Öndərimiz Heydər Əliyev cənabları ilə görüşsəm də, heç vaxt, heç nə ummamışam. Lakin Azərbaycanımızın mənafeyini müdafiə edəcək hər hansı qorxulu bir iş olsa mən orada çalışmağa hazıram.**

Bizə elə gəlir ki, hörmətli Prezidentimiz İlham Əliyev cənablarının Bağdadda səfirliyin açılmasına verdiyi Sərəncama qeyri-şərtsiz, vaxtında əməl olunmalı idi.

Gec də olsa, Prezidentin sərəncamı yerinə yetirilməlidir!

Lakin Prezidentə verdiyimiz müraciətin vaxtından və sizin bizə verdiyiniz cavabdan 2 il 2 ay keçməsinə baxmayaraq, hələ də, Prezidentin Sərəncamı icra olunmamışdır. Nə üçün?

***Hörmətlə: “Diplomat” qəzetinin baş redaktoru Tahir Süleyman.***

# Tahir Süleyman haqqında yazılanlara cavab verdi

Tahir Süleyman bir neçə gün öncə yerli saytlarda haqqında verilən ittihamlara




cavab olaraq Azərbaycan dövləti və dövlətçiliyinin möhkəmləndirilməsi və ermənilərin işğalçılıq siyasətini ifşa edən xidmətlərindən bəhs edib. Bununla da T.Süleyman haqqında yazılanların heç bir həqiqətə uyğun olmadığını isbatlayıb.

Faciələrimizi yaşadaraq, erməni daşnaqlarının xislətini dunya ictimaiyyətinə catdırmaq hər bir Azərbaycan vətəndaşının borcudur. Hər il imkan daxilində, Şimali İraqın Kurdustan bolgəsinə gedir və orda yaşayan qardaşlarımız haqqında məlumat əldə edir və oxuculara çatdırırıq. Bu il də ermənilərin yalan soyqırım uydurmalarını və ermənilərin Azerbaycan xalqının başına gətirdikləri faciələri İraqda yaşayan medya mənsublarına, yerlı xalqa catdırmaq ucun, bir necə jurnalist dostumla Şimali İraqa getmək istəsək də, gedəcək jurnalistlərə viza əldə edə bilmədik. Mən iki iş adami ilə gedəsi oldum. Səhərə yaxin Erbil şəhərinə catdıq, İŞİD-lə muharibələrinə baxmayaraq şəhərin hər yerində yeni coxmərtəbəli tikililər goze dəyirdi. Səhər ilk işimiz Kurdustan Parlamentinin ziyarəti ilə başladı.

Bizi Parlamentin coxdan tanıdığım sədr muavini Cəfər Heminki qəbul etdi. Biz Xocalı soyqırımının Kurdustan Parlamentinin gundəminə salınmasını və tanınmasını istədik. Lakin Cəfər bəy Azərbaycanın İraqla, eləcə də Kurdustan bolgəsi ilə hec bir siyasi əlaqəsi olmadığını və bu məsələnin fərdi şəkildə deyil dovlət səviyyəsində qoymaq lazım olduğunu bildirdi və dedi: “Biz sizə imkan yaradarıq ki, media mənsubları qarşısında, universitetlərdə konfranslar keçirəsiniz və istəyinizi bu vasitə ilə xalqa, ictimaiyətə catdırasınız”.

Aprelin 22-də beş ulduzlu “Şiraton” mehmanxanasında “Kurdustan” qəzetinin 117-ci il donumu munasibəti ilə konfrans kecirilirdi, biz də dəvətli idik. Mənə də soz verildi, mən də “Kurdustan” qəzetinin tarixindən, xidmətindən danişaraq medya iştirakcılarına Azərbaycanımız haqqında məlumat verdim. Ermənilərin aprelin 24-də kecirəcəyi yalan soyqırıma qarşı olan tarixi faktları qoyaraq bildirdim ki, erməni daşnaqları hələ 1897- ci ildə Turkiyənin Xanasor əyalətində bir gecədə 40 000 kurd və turk xalqını qətl etmişlər.

Hormətli qonaqlar, hormətli konfrans iştirakcıları, babalarımızın erməni daşnaqları haqqında soylədiklərini və tarixən oxuduqlarımız tarixi faktları sizə catdirmaq istəyirəm. İstəyirəm biləsiniz erməni daşnaqları ozlərinin yazdıqları kimi 1897- ci ildən başlayaraq 1905-ci ildə, 1907-ci ildə, 1915-ci ildə, Turkiyənin və Azərbaycanın muxtəlif bolgələrində kutləvi qətliyamlar torətmişlər, olmazın musibətlərini azərbaycan, kurd və turk xalqına yaşatmışlar. 1934-cu ildə, 1937-ci ildə, 1947-ci ildə, 1948-ci ildə Azərbaycan və kurd xalqını doğma yurdlarından var yoxlarını əllərindən alıb surgun etmişdilər. Və sonda 1989-cu ildə Qarabağ məsələsi ilə bağlı, Qərbi Azərbaycandan, yəni indiki Ermənistandan azərbaycanlıları və musəlman kurdlərini zorla evlərini, mulklərini əlindən alıb qovmuşdular. Hətta korpə uşaqları dəmir borulara dolduraraq boruların ağzını qaynaqlamışlar. Bu gun sizlərə məlum olmayan bir qətliyam haqqında məlumat vermək istəyirəm, Xocalı qətliamı haqqında. Xocalı qətliyamı XX -əsrdə torədilən ən dəhşətli faciədir. Xocalı faciəsi daha ağır, daha dozulməz olmuşdur. 26 fevral 1992-ci ilin qarlı qış gunu erməni daşnaqlarının və rus ordusunun birləşmələri xalqımıza qarşı torətdikləri qətliyam hec zaman xalqımızın yaddaşından silinməyəcək. Cənablar və xanımlar bu qanlı facia haqqında danışmaq mənim ucun nəqədər cətin olsa da, sizlərə bu olayı anlatmaq bir o qədər



zəruridir. Bu qanlı facia nəticə sində 623 nəfər vəhşicəsinə qətl edil miş, 8- ailə tamamilə yer uzundən silinmiş, 25- uşaq hər iki valideyini itirmiş, 230- uşaq isə valideyinlərindən birini itirmiş, 487- nəfər yaralanmışdır.

Onlardan 76-nəfəri uşaqdır. 1275 nə fər əsr goturulmuşdur, 250 nəfər isə itgin duşmuşdur. 01.04. 1992-ci il tarixinə olan məlumata gorə Xocalıya 5 milyard manat məbləğində ziyan dəy mişdir. O dovurki SSRİ rəhbərliyi bu faciəni gizlətməyə calışsa da, hadisələrin şahidi olan xarici jurnalistlər,belə bir faciənin tarixdə olmadığını bildirərək belə yazırdılar: “Krua Eveneman” jurnalı (Paris) 25-mart 1992-ci il- Ermənilər Xocalıya hucum etmişlər. Butun dunya eybəcər hala salınmış meyidlərin şahidi oldu. -“Sandi Tayms” qəzeti (London) 1 mart 1992-ci il –erməni əsgərləri minlərlə ailəni mehv etmişlər. – “Faynenssl Tayms” qəzeti (London) 9 mart 1992-ci- Ermənilər Ağdama tərəf gedən dinc əhalini gullələmişlər. Azərbaycanlılar 200 nəfərə qədər cəsəd saymişlar. Bu barədə yuzlərlə qəzetjurnal yazsada, təəssuflər olsun ki, burdakı soydaşlarımız, dindaşlarımız Azərbaycan xalqının başına gələn faciələrdən xəbərsizdir.

Guman edirəm ki, bundan belə əlaqələrimiz yaranacaq , biri birimizin ictimai-siyasi durumundan xəbərdar olacaq və lazımı məlumatları zamanın da dunya ictimaiyyətinə catdiracağıq. Bizə vaxt ayırdığınız ucun, Kurdustan rəhbərliyinə və konfrans iştirakcılarına təşəkkur edirəm. Selaheddin Universitetinin tarix və ədəbiyyat fakultəsində seminar və Universitetin muəllim heyəti qarşısındada bu movzuda konfrans kecirtdik. Mənə də gəlir ki, Respublikamızın inkişafını təbliğ etmək, eləcə də faci ələrimizi yaşadaraq, erməni daşnaqlarının xislətini dunya ictimaiyyətinə catdırmaq hər bir Azərbaycan vətəndaşının mənəvi borcudur.

***Tahir Süleyman***
***“Azərbaycan Kurdləri”***
***İctimai Birliyinin sədri,***
***“Diplomat” qəzetinin baş redaktoru***

# Azərbaycanda separatizmin daha bir nümunəsi: - Laçın haçandan kürd torpağı oldu, ay adamlar...

***Red: Cənablar, deyəsən sizlər yaxın keçmişinizdən bixəbərsiniz. Məlumunuz olsun ki, 1923-1929-cu illərdəki mərkəzi Laçın olmaqla Azərbaycan SSR-nin tərkibində Kürdüstan qəzası olmuşdur.***

DİA.AZ: - Azərbaycan tolerant ölkədir. Bu sözün əsl mənasında və hər baxımdan belədir. Amma bizim dözümlülüyümüzün də bir həddi və bi hüdudu var. Dəfələrlə həm ölkə prezidenti İlham Əliyev və həm də ayrı-ayrı dövlət adamlarımız çıxışlarında da bəyan ediblər ki, Azərbaycandakı dini, milli dözümlülük, tolerantlıq birbaşa olaraq Azərbaycanın milli dövlətçilik maraqlarına xidmət edir. Yəni bu da o deməkdir ki, kimlərəsə yaradılan əlahiddə azadlıq Azərbaycanın dövlət maraqlarının hüdudlarını aşa bilməz. Elə qanunlarımız da bunu deyir, bunu müdafiə edir.

Amma bir para qüvvələr var ki, dəfələrlə Azərbaycanda məhz kənar qüvvələrin təsiri ilə süni təxribatlara əl atılır, Azərbaycanda süni şəkildə bölücülük salınır. Halbuki bu gün Azərbaycanda istənilən dini və milli azlıqlar, hətta cinsi azlıqlar belə məhz Azərbaycan dövlətinin qanunları ilə böyük azadlıqlara malikdirlər. Bir daha vurğulayırıq ki, maləsəf, məhz kənar güclərin təsiri altında təxribatçılar hər zaman iş başında olublar və bu gün də Azərbaycan dövlətinə qarşı, Azərbaycanın havasını uda-uda, Azərbaycanda yaşaya-yaşaya bölücülük fəaliyyətlərindən qalmırlar.

**Kimdir onlar?**

DİA.AZ xatırladır ki, bu barədə cəmiyyət yetərincə məlumatlıdır. Məsələn, bu günə kimi Azərbaycanda aşkar şəkildə fəaliyyət göstərən PKK yandaşları var ki, onlara qarşı hansısa ölçü götürülməyib. Yalnız Qaraçuxurda məsciddə terror aktı törətdikdən sonra Bakıdakı bəzi PKK meyilli şəxslər həbs olundu. Yəni anlaşılanı odur ki, cəza yalnız konkret cinayət əməli törədiləndə baş verir. Amma düşmən təbliğatını aparan "Dİplomat" kimi qəzetlər, ayrı-ayrı "facebook" istifadəçiləri isə belə cəzalardan kənarda qalırlar. Hər halda "Diplomat" qəzetinin baş



redaktoru Tahir Slüeymanın rahatlıqla İraq və Suriya kürdlərinin liderlərilə, hətta PKK və YPG kimi terrormu təşkilatlara aid simalarla fotolar çəkdirib yan-yana düzməsi, özünün nəşr etdiyi qəzetdə Azərbaycan və Türkiyə dövlətlərinə aid ərazilərdə uydurma "Kürdüstan dövləti" yaratması və hətta Azərbaycanın dövlət rəsmilərini bu Kürdüstanı dövlət kimi tanımağa çağırması zamanında ciddi siqnal olmalı idi. Məsələn, DİA.AZ Tahir Süleymanın hələ 2014-cü ilin 11 yanvar tarixində media qarşısında utanmadan etdiyi təklif diqqətinizə çatdırır:

**"Azərbaycana “Kürdüstan”ı tanımaq təklif olundu**

"Diplomat"ın baş redaktoru Tahir Süleyman "Kürdüstanın rəhbəri" Məsud Bərzani ilə “Diplomat” qəzetinin İdarə Heyəti Media Mərkəzində dövlət başçısı İlham Əliyevə müraciətlərilə bağlı mətbuat konfransı keçirib. Qəzetin təsisçisi Tahir Süleyman müraciətin mətnini açıqlayıb. Müraciət müəlliflərı əsas məqsədləri kimi İraqın şimalında, “Kürdüstan” kimi tanıdılan ərazidə qurulan siyasi qurumun ərazisində Azərbaycan nümayəndəliyinin, Azərbaycanın isə İraq və adı çəkilən bölgədə səfirlik və konsulluqlarının açılması olduğunu qeyd edirlər. Həm də müəlliflər bunu Azərbaycanın problemlərinin bu bölgədə təşviq olunması ilə əlaqələndirmək istəyirlər. Ermənistanın İraqla və adı çəkilən bölgəyə münasibətdə bir sıra addımlar atdığını nəzərə çatdıraraq, rəsmi Bakını faktiki tələsməyə və Ermənistanı qabaqlamağa çağırırlar. Tədbirdə deyilib ki, rəsmi Bağdad Azərbaycanın İraqda səfirlik açması ilə bağlı Azərbaycanın RF səfirliyinə dəfələrlə müraciət etsə də, qaneedici cavab almayıb. Bununla birgə, aydın deyil ki, niyə rəsmi Bağdadın funksiyalarını “Diplomat” qəzeti öz üzərinə götürür? Türkiyədə kürd-türk qarşıdurması haqda danışan T.Süleyman bu qarşıdurmanı Avropa önündə güclü Türkiyə görmək istəməyənlərin, silah satmaqda maraqlı olanların layihəsi adlandırıb. Amma dəfələrlə sual verilməsinə baxmayaraq, T.Süleyman İranda, Rusiyada, Suriyada kürdlərin problemlərinə toxunmayıb. T.Süleyman eyni zamanda PKK-nın yeri və roluna dair sualı da cavablandırmaqdan yayınıb. Beləliklə, bu qurumun niyə yaradılması, təyinatının nədən ibarət olması, bu qüvvədən Türkiyə əleyhinə hansı dövlətlərin istifadə etməsi məsələsinə də aydınlıq gətirilməyib.

Bir sözlə, iki dövlət arasında həll edilməli olan bir məsələnin bir qəzetin İdarə Heyəti səviyyəsində mətbuata çıxarılması özü maraqdan çox sual və təəccüb doğurur. “Turan”ın bu xəbərinə onu əlavə edirik ki, “Diplomat” adlı qəzet İraq “Kürdüstan”ına Azərbaycanlı jurnalistlərin müntəzəm səfərini təşkil edir. Bu qəzeti İraq “Kürdüstan”ının Azərbaycandakı nümayəndəliyi adlandıranlar da var".

Elə "Turan" agentliyinin bu məluamtından da aydın olur ki, Tahir Süleyman Azərbaycanda geniş fəaliyyət göstərir. O qədər geniş fəaliyyət ki, hətta bu gün onun ayrı-ayrı cameələrdə belə tərəfdarları, fikirdaşları var ki, onlar da Azərbaycan torpaqlarını belə "Kürdüstan kimi qələmə verməkdən çəkinmirlər. Həmin şəxslərdən biri isə bir zamanlar Laçın rayon təhsil idarəsinə çalışnış Müqabil Baxışovdur. Bildirək ki, bu şəxs artıq rəsmi soyadını da "Kürdoğlu" imzası ilə dəyişərək ayrı-ayrı yerlərdə PKK-nı aşkar şəkildə təbliğ edən çıxışlarda bulunur. Xatırladaq ki, bir müddət əvvəl də bu adam yerli KİV-lərin diqətinə gəlmişdi. Həmin zaman isə Müqabil Baxışov Nizami Gəncəvini kürd şairi adlandırmaqla özünü gözə soxmağa çalışırdı. Qeyd edək ki, sosial şəbəkələrdə kifayət qədər aktiv olan Baxışov ayrı-ayrı mətbu orqanlara özünü zərərçəkən kimi təqdim edərək sakini olduğu Laçın rayonunun, habelə ayrı-ayrı dövlət qurumlarının rəhbərlərinin ünvanına da böhtanlar yağdırmaqla məşğuldur. Dəfələrlə onun əzabkeş birisi olduğunu güman edən DİA.AZ saytı belə Baxışovun məmurlar tərəfindən əzildiyini zənn edərək onun şikayətlərini işıqlandırıb. Amma indi aydın olur ki, bu adam əslində bir PKK yandaşı təfəkkürü ilə yaşadığı torpağın, dövlətin təəsübünü çəkmək əvəzinə onun kökünü baltalayan bir məfkurəyə qulluq etməkdədir. Buna şübhəsi olanları isə Müqabil Baxışovun "facebook"dakı səhifəsinə göz salmağa dəvət edirik. Həmin səhifədəki bəzi FOTOları isə diqqətinizə çatdırırıq: Elə buradan aydın olur ki, işğal altında olan Laçın rayonunu "Kürdüstan" adlı bir təxəyyül məhsulunun bir parçası kimi görən bu şəxslər Azərbaycana nə qədər "sevgilə" yanaşırlar... Araşdırmalarımız davam edir. Bizi izləyin...

# Xocalı soyqırımı Kürdüstanın Ərbil şəhərində keçirilən konfranslarda qaldırılıb

## *Ərbil türkmənləri: “Azərbaycandan fərqli olaraq, 50-dən artıq ölkənin, eləcə də Ermənistanın on illərdir İraqda səfirliyi və Ərbildə konsulluqları fəaliyyət göstərir”, görəsən bizim doğma Azərbaycanın səfirliyi niyə yoxdur?”*

**(Əvvəli səh. 3-də)**

Kürdüstan bölgəsinin Səlahəddin universitetinin rektoru Əhməd Dzeyinin rəhbərliyi ilə “Osmanlı dönəmində Yaxın Şərq və Kürdüstanın siyasi durumu” mövzusunda 17 ölkənin iştirakı ilə



keçirilən konfransa Azərbaycandan beş nəfərlik nümayəndə heyəti də dəvət olunmuşdu.

“Diplomat” qəzetinin baş redaktoru Tahir Süleyman, özü ilə apardığı beş nəfər nümayəndə heyəti, Kürdüstan bölgəsindən Vətənə dönüblər. Bununla bağlı Moderator.az-a verdiyi açıqlamada Tahir Süleyman kürdlərlə yanaşı türkmənlərin də yaşadığı bölgələrdə də olduqlarını dedi. Səfərin məqsədi konfransda iştirak edərək, Azərbaycanımızın başına gətirilən faciələri dünya ictimaiyyətinə çatdırmaq olub.

İlkin olaraq türkmən Yazıçılar birliyinin sədri və “Yurd” dərgisinin baş yazarı, sabiq türkmən millət vəkili Əsəd Ərbil, Ərbil şəhərində Yazıçılar Birliyinin konfransında iştirak etmək üçün bizi dəvət etdi. Mövzu “Hələbçədə, Balisanda kürdlərin, türkmənlərin Səddam Hüseyn tərəfindən kimyəvi silahlarla soyqırıma məruz qalması” mövzusunda, yaxşı yazarlara təqdimat keçiriləcəkdi. Əsəd Ərbil başda olmaqla türkmən və kürd şair və yazıçıları bizi də dəvət etdilər və biz konfransa getdik. Yazıçılar Birliyinin konfransında, mən cəhd etdim ki, ermənilərin 1992-ci ildə Azərbaycanda yaşayan türklərə, kürdlərə qarşı törətdikləri faciələri, ələl xüsus Xocalı soyqırımı məsələsini gündəmə qoyun. Əvvəlcə onlar tərəddüd etdilər və dedilər ki, bu gündəlikdə yoxdur. Amma mən təkid etdim, Xocalı ilə bağlı apardığımız kitabları, şəkilləri göstərdik. Dedik ki, Səddam Hüseyn kimyəvi silahla insanları kütləvi şəkildə qırıb. Ermənilər isə qırmaqdan əlavə insanların gözlərini çıxardıblar, başlarının dərisini soyublar. Yəni bunlar daha dəhşətlidir. Xocalıda azəri türkləri ilə bərabər kürdlər də olub.

Yeni təkidlə məsələni gündəliyə saldırdım. XIX əsrdən ermənilərin Qarabağa gətirilməsi, 1915-ci illərdə erməni-türk müharibəsi dövründə camaatın Qərbi Azərbaycandan məcburi İrana mühacirət olunması, Sovet hökuməti dövründə qayıtması, 1937-ci ildə kürdlərin Orta Asiya və Qazaxıstana sürgün olunması, 1947-ci ildə azərbaycanlıların Qərbi Azərbaycandan kütləvi şəkildə deportasiya edilməsi, Dərələyəz, Zəngəzur mahallarının boşaldılması məsələlərini tarixi faktlarla gündəmə gətirdim. Xocalı məsələsinə geniş yer verərək orada olan hadisələri, əlimizdə olan məlumatları çatdırdım. Aprelin 16-da Səlahəddin Universitetində 17 dövlətdən gələn qonaqların iştirak etdiyi konfransda mən Xocalı məsələsini qaldırmaq istədim. Bu zaman konfrans rəhbərliyi qeyd etdi ki, bu tarixi bir mövzudur, siyasi mövzu deyil. Dedim o halda icazə verin xaricdən gələn jurnalistlərlə mətbuat konfransı keçirim. Biz Xocalı ilə bağlı əlimizdə olan 300-400-ə qədər şəkilləri, fakt olaraq çıxartdıq və xaricdən gələn jurnalistlərə təqdim edərək başa saldıq ki, belə bir hadisə baş verib. 50-dən artıq xarici jurnalistə 20 yanvar hadisələrini, Qarabağ hadisələrində partladılmış avtobusları, Bakı metrosundakı terror aktını əks etdirən şəkillər payladıq. Onlarda böyük maraq oyandı və dedilər ki, niyə Azərbaycan hökuməti və diasporası bu məlumatları bizlərə çatdırmır, bizimlə əlaqə saxlamır? Mən də onlardan xahiş etdim ki, siz də konferans rəhbərliyinə deyin, Xocalı soyqırımı məsələsini gündəliyə salarsa, biz konfrans iştirakçılarına Xocalı məsələsini şərh edərik. Xaricdən gələn jurnalistlər yerli jurnalistlər gedib konfrans rəhbərliyindən xahiş etdilər və bu məsələnin gündəliyə qoyulmasının razılığını aldıq.

Konfrans qabağı biz Xocalı, Qarabağ, 20 yanvarla bağlı 400-dən artıq şəkil və məlumatlar payladıq. Ondan sonra mən Xocalı soyqırımı ilə bağlı, Azərbaycanla bağlı geniş çıxış etdim. Çıxışım böyük alqışlarla qarşılandı. Bundan sonra müxtəlif siyasi partiyalarla görüşdük və Azərbaycanın başına gətirilən hadisələri gündəmə gətirdik. Mən universitetin tarix və ədəbiyyat fakültəsində də müəllim və tələbələrlə qarşısında seminar keçirdik, tarixi hadisələr, başımıza gələn bəlalar haqqında məlumat verdik, onlara əlimizdə olan vərəqələr payladıq. Ayın 20-də mən məsələni Kürdüstan parlamentinin gündəminə qoymağa çalışdım. Lakin Siyasi Bürodan bizə bildirdilər ki, biz Kürdüstan Hökuməti olaraq dəfələrlə Azərbaycan hökuməti ilə diplomatik əlaqələrə girməyə çalışsaq da, bu məsələ hələ də baş tutmayıb. Dedilər 50-yə yaxın ölkənin səfirliyi, konsulluğu Kürdüstan bölgəsində var. Lakin təəssüflər olsun ki, Azərbaycan hökuməti soyqırımla bağlı bizə müraciət etməyib. Ona görə də məsələni Kürdüstan parlamentinə qoya bilmərik. Bu, qanundan kənardır. Türkiyənin Ərbildəki konsulunun müavini İbrahim bəylə görüşdük. O da dedi ki, Xocalı məsələsinin qaldırılması çox yaxşı oldu. Əgər burada Azərbaycan səfirliyi olarsa biz bu məsələni daha qabarıq şəkildə gündəmə gətirə bilərik. Beləliklə biz Azərbaycanla bağlı beş konfrans və seminar keçirtdik. Türkmən Yazıçılar Birliyində, Türkmən Mədəniyyət Mərkəzində olduq, Molla Musa Bərzaninin məzarını ziyarət etdik”.











Tahir Süleyman onu da vurğuladı ki, “Diplomat” qəzetinin idarə heyəti adından İraqda Azərbaycan səfirliyinin açılması üçün ölkə prezidenti İlham Əliyev cənablarına iki dəfə müraciət ediblər, lakin Xarici işlər nazirliyinin verdiyi cavab sabitliyin olmamasıdır. Azərbaycanın İraqda səfirliyi açılması haqqında 2010-cu il noyabrın 12-də prezident İlham Əliyevin sərəncamı var. Lakin nədənsə, bu sərəncam indiyə qədər icra olunmayıb. Ermənistanın səfirliyi isə on illərdir İraqda fəaliyyət göstərir. Arzu edirik ki, yaxın zamanlarda Azərbaycanın da səfirliyi Kürdüstan bölgəsində fəaliyyət göstərsin.

***Emil SALAMOĞLU,***
***musavat.com***

# Kürdüstan muxtariyyətində Azərbaycan söhbəti...

## *Xocalı faciəsi Ərbil şəhərində anıldı; müxbirimiz Şimali İraqdan yazır...*



Azərbaycandan Şimali İraqın Kürdüstan muxtariyyətinin paytaxtı Ərbil şəhərinə gedən 5 nəfərlik nümayəndə heyəti artıq bu ölkəyə çatıb. Məlum olduğu kimi, "Diplomat" qəzetinin baş redaktoru Tahir Süleymanın təşəbbüsü ilə 5 nəfərlik nümayəndə heyəti Sələhəddin Universitetində keçiriləcək "Osmanlı imperiyası dövründə Yaxın Şərqdə ictimai-siyasi vəziyyət" mövzusunda konfransda iştirak etməyə dəvət olunublar.

Heyətdə təşkilatçıların dəvətini qəbul edən "Yeni Müsavat"ın əməkdaşı Emil Salamoğlu da var. Nümayəndə heyətinin Ərbildə yaşayan kürd və türkmən ziyalıları, eləcə də hökumət təmsilçiləri, ədiblərlə görüşləri nəzərdə tutulur.

Bu görüşlərdən əlavə, müxbirimiz Şimali İraqda ictimai-siyasi vəziyyət haqda reportajlar da hazırlayır. Reportyorumuzun bölgə ilə bağlı ilkin təəssüratları belədir:

"Şimali İraqın sərhəd qapısından şəhər mərkəzinə qədər yoxlanış məntəqələrində əli silahlı polislər şəhərə daxil olan hər kəsə nəzarət edir. Şəhərin girişçıxışında hər bir maşın yoxlanılır, maşındakı şübhəli sərnişinlərin pasportlarına baxılır. Burada deyilir ki, polislər terrorçuları bir baxışdan tanıyırlar. Yalnız şübhələndikləri adamları saxlayırlar. Ərbil İraqın ən sabit bölgəsidir. Ona görə də başqa əyalətlərdən Ərbilə axın var. Şəhərdə tikinti bumu yaşanır. Hər yerdə binalar inşa edilir, parklar salınır. Türkiyə mətbuatının da yazdığı kimi, görünən budur ki, Ərbil gəlişməkdə olan yüksək səviyyəli bir paytaxtdır.

Nümayəndə heyəti aprelin 14-də Ərbil şəhərində təşkil olunmuş Kürdüstan Yazıçılar Birliyinin tədbirində iştirak edib. Tahir Süleymanın təşəbbüsü ilə proqramda olmayan Xocalı faciəsi ilə bağlı mövzu gündəmə salınıb və çıxışçıların sırasında T.Süleyman Xocalı faciəsində ermənilərin başımıza gətirdiyi fəlakətləri konfrans iştirakçılarının diqqətinə çatdırıb.



Türkmən Yazarlar Birliyinin sədri Əsəd Ərbil və İdarə Heyətinin üzvü Riyaz Dəmirçi də konfransda dəvət əsasında iştirak ediblər. Tədbirin əsas məqsədi Səddam Hüseynin hakimiyyəti dövründə kütləvi qırğına məruz qalan Hələbcəlilərə dair bədii əsər yazan ədiblərin mükafatlandırılması olub.

Konfransda ölkənin mədəniyyət naziri Doktor Kava Mahmud və Ərbil valisi Nevzad Hadi iştirak ediblər.

Mərasim Hələbcə və Xocalı qətliamı qurbanlarının bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb. Hələbcə qətliamı ilə bağlı Ərbil valisi və başqa yetkililər çıxış ediblər.

Daha sonra Tahir Süleymana söz verilib. Azərbaycan mediasında birmənalı qarşılanmayan T.Süleyman "Yeni Müsavat" müxbirinin birbaşa müşahidəsi olan konfransda erməni faşistlərinin Xocalıda azərbaycanlıların başına gətirdiyi müsibətlərdən, vəhşiliklərdən söz açıb.



Qeyd edib ki, illər keçdikcə bizi göynədəcək bu faciə xalqımızın yaddaşından silinməyəcək: "Əksinə, xalqımıza daha dözümlü olmağa, erməni şovinizminə qarşı mətin mübarizə aparmağa səbəb olacaq. Xocalı faciəsi nə Hələpcə, nə Xatın, nə də Sonqimidir. Xocalı faciəsi daha ağır və dözülməz olub. Bu ağrı yaddaşımızdan heç vaxt silinə bilməz".

T.Süleyman Xocalı soyqırımında qətlə yetirilənlərin statistikasını açıqlayıb və vurğulayıb ki, bu dəhşətli faciə haqda bütün dünya məlumatlı olmalıdır: "Xocalıda 623 nəfər həlak olub, 8 ailə tam məhv edilib, 25 uşaq hər iki valideynini itirib. 230 uşaq bir valideynini itirib.

1275 nəfər əsir götürülüb. Xocalıya 5 milyard manat ziyan dəyib. İnsanlarımıza zülm olunub. Körpələr, yaşlılar, qadınlar amansızlıqla qətlə yetirilib.

Nə yaxşı ki, Çingiz Mustafayev kimi oğullar həyatlarını təhlükəyə ataraq bu hadisələri çəkib bütün bəşəriyyətə çatdırıblar. Xocalı bizim sağalmaz yaramız, anabacılarımızın ah-naləsi, körpələrimizin göz yaşlarıdır".



T.Süleymanın çıxışına görə konfrans iştirakçıları ayağa qalxaraq alqışlayıblar. Konfransdan sonra onlar Xocalı hadisəsinin Ş.İraq ictimaiyyətinə lazımi şəkildə çatdırılmamasından şikayətləniblər. Yekunda Ş.İraqın mədəniyyət naziri və Ərbil valisi Hələbcə mövzusunda yazan bədii əsərlərin qaliblərini mükafatlandırıblar.

***Emil SALAMOĞLU, musavat.com***

# Daşkəsən rayonu bu gün ən sürətli quruculuq dövrünü yaşayır

Bu gün ölkə Prezidenti cənab İlham Əliyevin regionların sosial-iqtisadi inkişafına dair təsdiq etdiyi müvafiq proqramlar, imzaladığı sərəncamlar, verdiyi tapşırıqlar bütün ölkə ərazisində olduğu kimi, rayonumuzda da uğurla və sürətlə davam etdirilir. Həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində rayonların iqtisadiyyatı daha da möhkəmlənir, əhalinin yaşayış səviyyəsi yaxşılaşır. Bölgələrdə geniş abadlıq və quruculuq işləri aparılır. Ölkə rəhbəri möhtərəm Prezidentimiz cənab İlham Əliyevin sərəncam və göstərişləri əsasında regionlarda həyata keçirilən quruculuq işləri hər bir bölgənin inkişaf strategiyasına uyğun aparılır. İndi bütün regionlarda səngiməyən abadlıq-quruculuq işləri ölkəmizin kompleks inkişafını təmin edir. Bu sırada son illər Daşkəsən rayonunda görülən işlər də diqqəti cəlb edir. Bu gün Daşkəsəndə iri miqyaslı layihələr həyata keçirilir, geniş tikinti, quruculuq və abadlıq işləri aparılır. Son illər rayonda onlarla yeni məktəb, uşaq bağçaları, xəstəxana və inzibati binalar inşa olunmuş və əsaslı təmir edilmişdir.

Zağalı-Kollu-Çıraqlı avtomobil yolu əsaslı təmir olunaraq müasir standartlara uyğun asfalt örtük salınmışdır. Daşkəsən şəhərində su və kanalizasiya xətlərinin yenidən qurulması işi uğurla davam etdirilir. Təbii fəlakət nəticəsində güclü ziyan dəymiş çoxmərtəbəli yaşayış və inzibati binalarının dam örtükləri əsaslı təmir edilərək dəmir lövhələrlə əvəz olunmuşdur. 26 noyabr 2015-ci il tarixdə Daşkəsən Rayon İcra Hakimiyyətinin Başçısı cənab Əhəd Abıyev rayonun Qabaqtəpə-Pirverdilər və Pirverdilər-Astaf kəndləri arasında olan avtomobil yolunun üzərində müasir tələblər səviyyəsində inşası davam etdirilən iki ədəd körpüdə işlərin gedişatı ilə yaxından tanış olmuşdur. İnşaatçılarla və kənd sakinləri ilə görüşmüş, tikinti ilə bağlı layihənin icraçılarına öz tapşırıq və tövsiyələrini vermişdir. Qabaqtəpə kənd sakinləri inşası davam etdirilən körpünün üstündə Daşkəsən Rayon İcra Hakimiyyətinin Başçısı cənab Əhəd Abıyevlə görüş zamanı onları uzun illərdən bəri narahat edən bu ağır problemin həllinə görə möhtərəm Prezidentimiz cənab İlham Əliyevə öz minnətdarlıqlarını və təşəkkürlərini bildirmiş, xalqına və Vətəninə Ulu öndər Heydər Əliyev zirvəsindən xidmət edən dünya şöhrətli Prezidentimizin ətrafında həmişə sıx birləşəcəklərini ifadə etmişlər. Görüş



zamanı Daşkəsən Rayon İcra Hakimiyyətinin Başçısı sakinləri narahat edən digər problemlərlə də maraqlanmış, həmin problemlərin gələcəkdə ardıcıllıqla həll olunacağını bildirmişdir. "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nda Daşkəsən-Əmirvar-Qabaqtəpə avtomobil yolunun asfaltlaşdırılmasının yaxın vaxtlarda icrasına başlanılacağını da sakinlərin diqqətinə çatdırmışdır. İnşası aparılan körpülərin hər birinin uzunluğu 28 metr və eni isə 11 metr təşkil edir. Körpülərin tikintisinə 2014-cü ilin sentyabr ayında başlanılmış, 2015-ci ilin sonuna əhalinin istifadəsinə verilməsi nəzərdə tutulmuşdur. Uzun illər idi ki, Qabaqtəpə İnzibati Ərazi Dairəsində yerləşən kəndlərin əhalisi həmin ərazidə körpülərin olmaması səbəbindən çox böyük çətinliklərlə üzləşirdilər. Belə ki, yaz və payız aylarında yaranan sel sularının nəticəsində həmin istiqamətdə nəqliyyatın və eləcə də əhalinin gediş-gəlişi tamamilə dayanırdı. Bu da həmin kəndlərdə baş verən hər hansı bir hadisənin vaxtında qarşısının alınmasına ciddi maneçilik törədirdi. Bu körpülərin tikintisinin başa çatmasından sonra həmin ərazidə olan bütün problemlər öz həllini tapacaq, kəndin sosial-iqtisadi inkişafına imkan verəcəkdir. Ulu öndər Heydər Əliyevin dediyi kimi, yol iqtisadiyyat, mədəniyyət, bir sözlə, həyat deməkdir.

İllər keçəcək bü körpünün üstündən keçən hər bir sakin belə ucqar ərazidə böyük diqqətə, göstərilən qayğıya görə möhtərəm Prezidentimiz cənab İlham Əliyevə və bu işlərin rayonda icra olunmasında hörmətli başçımız cənab Əhəd Abıyevə çox sağ olun deyəcək, onlara ürəklərində daimi minnətdarlıq hissi yaşadacaqlar.

# Sabunçu rayonunda Yeni Azərbaycan Partiyasının yaranmasının 23-cü ildönümü qeyd edildi

18 noyabr 2015-ci il tarixdə Sabunçu Rayon İcra Hakimiyyəti və Yeni Azərbaycan Partiyası Sabunçu rayon Təşkilatının birgə təşkilatçılığı ilə Yeni Azərbaycan Partiyasının yaranmasının 23-cü ildönümü münasibəti ilə tədbir keçirildi. Tədbirdə Rayon İcra Hakimiyyətinin başçısı Adil Vəliyev, müavin, hüquq-mühafizə orqanlarının rəhbərləri, YAP Sabunçu rayon təşkilatının sədri, ərazi icra nümayəndələri, bələdiyyə sədrləri, təhsil işçiləri, gənclər iştirak etdilər. Tədbir iştirakçıları ilk öncə Ulu öndər Heydər Əliyevin YAP Sabunçu rayon təşkilatının inzibati binasındakı abidəsi önünə gül dəstələri qoyaraq dahi şəxsiyyətin ruhuna öz ehtiramlarını bildirdilər.

